# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 497**

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

***Çərçivə sazişinin, təklif sorğusunun və sadə satınalma müqaviləsinin nümunəvi formasının təsdiq edilməsi haqqında***

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.17-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Çərçivə sazişinin nümunəvi forması” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Təklif sorğusunun nümunəvi forması” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Sadə satınalma müqaviləsinin nümunəvi forması” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 10 yanvar, № 003.- S.8.